# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 52** **Bakı şəhəri, 16 fevral 2017-ci il**

***“ASAN ödəniş” sisteminə qoşulmaq üçün texniki tələblər”in və “ASAN ödəniş” sistemindən istifadə Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli qərarında dəyişiklik edilməsi haqqında***

“ASAN Viza” sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1559) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “ASAN ödəniş” sistemindən istifadə Qaydaları”na aşağıdakı məzmunda 4.15-1-ci bənd əlavə edilsin:

“4.15-1. Elektron vizanın verilməsinə görə müəyyən edilmiş dövlət rüsumu sistemə inteqrasiya olunmuş “ASAN Viza” sistemi vasitəsilə elektron qaydada ödənilir.”.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***